# *GutsanoviBolqarıstana qarşı* - 34529/10

Qərar 15.10.2013 [Section IV]

## Maddə 3

### Alçaldıcı rəftar

Ərizəçinin öz evində, arvadı və azyaşlı uşaqlarının gözü qarşısında həbsi üçün keçirilən sərt polis əməliyyatı: *pozuntu*

## Maddə 5

### Maddə 5-3

### Dərhal hakim və ya digər məmur qarşısına çıxarılma

Polis tərəfindən tutulmanın müddəti (3 gün 5 saat 30 dəqiqə): *pozuntu*

*Faktlar* – ƏrizəçilərC. Gutsanov, tanınmış yerli siyasətçi, onun arvadı və iki azyaşlı uşağıdır. Dövlət orqanları C. Gutsanovun korrupsiya cinayətində iştirak etdiyindən şübhələnmiş və onun evində axtarış əmri vermişlər. 31 mart 2010-cu ildəsaat 6.30-da bir neçə silahlı və maskalı polislərdən ibarət xüsusi dəstə ərizəçilərin evinə getmişdir. C. Gutsanovonların qapını açmaq əmrinə cavab verməyəndə polis güclə qapını açmış və evə daxil olmuşdur. C. Gutsanovun arvadı və iki azyaşlı uşağı polisin gəlişi səbəbilə oyanmışdır. Birinci ərizəçi ayrıca otağa aparılmışdır. Evdə axtarış edilmiş və əməliyyatdan sonra evdən çox sayda sübut aparılmışdır. C. Gutsanov saat 13.00-da evini tərk edəndə artıq evin qarşısında journalist və televiziya işçiləri yığışmışdı. Mətbuat konfransı keçirilmışdır. Ertəsi gün bir regional gündəlik qəzet işlə bağlı prokurorun şərhlərini Daxili İşlər Nazirinin müsahibəsindən çıxarışlarla birgə nəşr etmişdir. Eyni gündə prokuror C. Gutsanova qarşı onun dövlət qulluqçusu qismində, fəaliyyəti bələdiyyəyə ziyan verəcək müqavilələrin verilməsinə gətirib çıxaran bir cinayətkar qrupun üzvlüyü və dövlət qulluqçusunun səlahiyyətlərindən sui-istifadı də daxil olmaqla bir neçə cinayət işi ilə bağlı ittiham irəli sürmüşdür. Prokuror birinci ərizəçinin məhkəmə qarşısına çıxarılmasını təmine tmək məqsədilə yetmiş iki saat tutulmasını əmr etmişdir. 3 aprel 2010-cu ildəC. Gutsanovməhkəmə qarşısına çıxarılmış və iclasda barəsində həbs qətimkan tədbiri seçilmişdir. 25 may 2010-cu ildə Appelyasiya Məhkəməsi ev dustaqlığı qərarı vermişdir. 26 iyul 2010-cu ildə birinci instansiya məhkəməsi onu zaminə buraxmışdır. 2013-cü ilin aprelindəona qarşı cinayət işi, ilkin istintaq mərhəlsində davam etməkdə idi.

*Hüquqi məsələlər* – Maddə 3: Polis əməliyyatının məqsədi həbs, axtarış vəsübutların götürülməsi və cinayət təqibi kimi ictimai mənafeyi qorumaq idi. Ailənin dörd üzvü polis əməliyyatı zamanı fiziki xəsarət almasa da, bu əməliyyat fiziki güc istifadəsilə həyata keçirilmişdir. Evin giriş qapısı xüsusi müdaxilə komandası vasitəsilə güclə açılmış və C. Gutsanovmaskalı şəxslər tərəfindən hərəkətsizləşdirilmiş, güclə aşağı mərtəbəyə aparılmış və əlləri qandallanmışdır. C. GutsanovVarna bələdiyyəsinə başçılıq etmiş tanınmış siyasətçidir. Onun zoraki keçmişinə və polisə təhlükə törədəcəyinə dair heç bir məlumat yox idi. Ərizəçinin evində odlu silahın olması öz-özlüyündə xüsusi müdaxilə komandasının və istifadə olunmuş tipdə bir gücün istifadəsini əsaslandırmır. Ailə üzvlərinin həbs zamanı orda olmasının mümkünlüyü bu tipli əməliyyatın pıanlaşdırılması və həyata keçirilməsi zamanı nəzərə alınmalı amillərdir. Axtarışın vacibliyi və qanuniliyinin ilkin məhkəmə nəzarətinə tabe edilməməsi bu əməliyyatın planlaşdırılmasını tamamilə polisin və istintaq orqanlarının öhdəsinə buraxmış və X. Gutsanova və iki azyaşlı uşağın hüquq və qanuni mənafelərinin nəzərə alınmasını təmin

etməmişdir. Hüquq mühafizə orqanları ərizəçilərin evində əməliyyat keçirilməsinin, əməliyyatı daha sonra keçirmək, hətta əməliyyatda başqa tip polis işçiləri tərəfindən aparılması kimi hər hansı başqa alternativ yolunu nəzərdən keçirməmişdir. X. Gutsanova və onun qızlarının legitim maraqlarının nəzərə alınması xüsusilə vacib idi, çünki X. Gutsanovanın ərinin şübhəli şəxs olduğu cinayət əməlində iştirak etməsilə bağlı şübhə yox idi və onun iki qızı azyaşlı ( beş və yeddi yaşlarında) olduqlarına görə psixoloji cəhətdən zəif idi. X. Gutsanova və iki azyaşlı qızı hadisələrdən ciddi şəkildə təsirlənmişdir.

Polis əməliyyatının səhər tezdən baş verməsi və maskalı xüsusi təyinatlıların X. Gutsanova və onun iki qızı tərəfindən görülməsi faktı üç ərizəçinin hiss etdiyi qorxu və narahatlığı o dərəcə artırmışdır ki, onların məruz qaldığı rəftar Konvensiyanın 3-cü maddəsinin tətbiqi üçün vacib olan ciddilik həddini keçmişdir. Bu səbəbdən bu üç ərizəçi alçaldıcı rəftara məruz qalmışdır.Polis əməliyyatı, C. Gutsanovun şübhəli bilindiyi cinayətin xarakteri, onu heç bir zoraki keçmişinin olmaması faktı və arvadı və uşaqlarının evdə ola bilməsi mümkünlüyü kimi bir çox faktorlar nəzərə alınmadan planlaşdırılmış və həyata keçirilmişdir. Bütün bu elementlər, açıq şəkildə C. Gutsanovun həbsinin ifrat xarakterinə dəlalət edir. C. Gutsanovun həbsinin həyata keçirilməsi qaydası C. Gutsanovda, ona həqarət edə və öz və yaxın qohumlarının gözündə alçalda biləcək güclü qorxu, narahatlıq və çarəsizlik hissləri oyatmışdır. Beləliklə, o da alçaldıcı rəftara məruz qalmışdır.

*Nəticə*: pozuntu (yekdilliklə).

Maddə 5 § 3

(a) *Hakim qarşısına çıxarılma* – C. Gutsanov31 mart 2010-cu ildə saat 6.30-da tutulmuş və hakim qarşısına üç gün beş saat oruz dəqiqədən sonra çıxarılmışdır. O, dövlət əmlakının mənimsənilməsi və səlahiyyətdən sui-istifadə ilə əlaqədar işdə şübhəli şəxs idi, zorakı cinayət əməllərində iştirak etməmişdi. O, həbs edilməsi üçün keçirilən polis əməliyyatı zamanı alçaldıcı rəftata məruz qalmışdır. Bu hadisələrin ardından və onun böyük adam olmasına və həbsinin əvvəlindən hüquqşunasla təmsil olunmasına baxmayaraq, C. Gutsanovhəbsinin ilk günlərində zəid idi. Bundan əlavə, onun tanınmış siyasətçi olması və medianın həbslə mox maraqlanması faktı şübhəsiz ki, onun həbsinin ilk günlərində onun üzərindəki psixoloji təzyiqi artırmışdı. Həbsinin ilk günündə C. Gutsanov bir neçə istintaq tədbirində iştirak etmişdir. Bununla belə, ərizəçi iki gündən bəri heç bir istintaq tədbirində iştirak etməsə də, regional prokurorluq onun barəsində həbs qətimkan tədbirini tutulmanın yerli qanunvericikdə icazə verilən dörd günlük müddətin son günündə istəmişdir. O, həbs qətimkan tədbiri barədə qərar verəcək məhkəmənin yerləşdiyi şəhərdə saxlanırdı və onun işində heç bir xüsusi təhlükəsizlik tədbirilərinin görülməsinə ehtiyac yox idi. Qısaca, ərizəçinin həbsinin ilk günlərindəki psixoloji zəifliyini və onu həbsin ikinci və ya üçüncü günü hakim qarşısına çıxarmamağı əsaslandıracaq heç bir halın olmadığınəzərə alınaraq, Dövlət, ərizəçini "dərhal" bir hakim və ya həbsin qanuniliyini yoxlamaq səlahiyyəti olan digər vəzifəli şəxsin qarşısına çıxarmaq öhdəliyini yerinə yetirməmişdir.

*Nəticə*: pozuntu (altı səsə qarşı bir səs).

(b) *Həbsin müddəti* – C. Gutsanoviki ayı ev həbsi olmaqla, dörd ay müddətində azadlığından məhrum olunmuşdur. Hətta azadlığa buraxılma ilə bağlı ilkin ərizələrinə baxarkən belə daxili məhkəmələr onun qaçıb gizlənə bilənəcəyini hesab etməmişlər. Bununla belə, onlar başqa cinayətlər törədə biləcəyi, xüsusən sübutları yox edə biləcəyi əsasıyla, ərizəçinin davamlı həbsi barədə qərar çıxarmışlar. Appelyasiya Məhkəməsi 25 may 2010-cu il tarixli qərarında heab etmişdir ki, bu sonuncu risk artıq yoxdur, çünki ərizəçi bələdiyyə şurasındakı işindən istefa vermişdi. Lakin o, C. Gutsanov barəsində məcburi ev həbsi qərarı

vermiş, heç bir spesifik əsas göstərməmişdir və bu tədbir daha iki ay qüvvədə qalmışdır. Beləliklə, dövlət orqanları ərizəçinin 25 may 2010-cu ildən sonra davamlı həbsini əsaslandırmaq üçün səbəb göstərmək öhdəliyinə riayət etməmişdir.

*Nəticə*: pozuntu (yekdilliklə).

Maddə 5 § 5: Dövlətin Cavabdehliyi haqqında Qanun əsasındakı proses səmərəli daxili müdafiə vasitəsi hesab edilə bilməz. Daxili qanunvericilikdə uzunmüddətli həbs və hakim qarşısına çıxarılmada gecikmə zamanı kompensasiya əldə etmək üçün hər hansı başqa müddəa mövcud deyildir.

*Nəticə*: pozuntu (yekdilliklə).

Maddə 6 § 2: C. Gutsanovun həbsinin ertəsi gün Daxili İşlər Nazirinin etdiyi və işin intensiv ictimai marağın mərkəzində olarkən qəzetdə nəşr olunan şərhləri, sadəcə məlumat verməkdən uzağa getmişdir. Nazirin şərhləri ictimaiyyətə C. Gutsanovun böyük məbləğdə dövlət əmlakını mənimsəyən cinayətkar qrupun "beyni" olması təəssuratı yaratmağa qadir idi. Bu səbəbdən, bu şərhlər ərizəçinin təqsirsizlik prezumpsiyası hüququna zidd idi. C. Gutsanovun davamlı həbsini əmr edən qərarların əsaslandırmasına gəlincə, məhkəmə bildirmişdir ki, məhkəmə "cinayət əməlinin törədilmiş olması və şübhəli şəxsin iştirak etməsi" fikrində qalır. Bu cümlə, işin mahiyyəti ilə bağlı qərarın verilməsindən öncə təqsirin elanı səviyyəsindədir və ərizəçinin təqsirsizlik prezumpsiyası hüququnu pozmuşdur.

*Nəticə*: pozuntu (yekdilliklə).

Maddə 8: Axtarış ilkin məhkəmə qərarı olmadan aparılmışdır. Axtarışdan sonra hazırlanan hesabat birinci instansiya məhkəməsinə təqdim edilmişdir və sonuncu formal olaraq razılığını vermiş və heç bir əsas göstərməmişdir. Məhkəməbunun yerli məhkəmənin axtarışın qanuniliyi və vacibliyini yoxlamasını sübut etməyə kifayət edən bir göstərici olmadığını bildirir. Bu məhkəmə yoxlaması xüsusilə əhəmiyyətli idi, çünki bundan əvvəl heç bir məqamda ərizəçinin evində axtarış zamanı müstəntiqlərin cinayət təqibi ilə bağlı hansı sənədlərin və əşyalarıntapılmasının və götürülməsinin gözləndiyi dəqiqləşdirilməmişdi. Həmin axtarışın ümumi xarakteri götürülən çox sayda və müxtəlif əşya və sənədlərvə bu əşyaların bəziləri ilə istintaq aparılan cinayət əməli arasında heç bir əlaqə olmaması ilə təsdiqlənir. Bundan əlavə, cinayət istintaqı beş ay əvvəldən başladığından, müstəntiqlər axtarış aparmazdan əvvəl məhkəməyə müraciət edə bilərdilər. Məhkəmə tərəfindən ilkin icazənin olmaması və həmin tədbirin məhkəmə qaydasında restrospektiv olaraq yoxlanılması səbəbilə, proses cinayət istintaqı orqanlarının səlahiyyətindən sui-istifadə riskinin qarşısının alınması üçün kifayət qədər müdafiə mexanizminə malik olmamışdır. Ərizəçilərhəqiqətən özbaşınalığa qarşı tələb olunan müdafiədən məhrum olmuşlar. Beləliklə, ərizəçilərin evlərinə hörmət hüququna müdaxilə " qanunla müəyyən edilmiş" deyildi.

*Nəticə*: pozuntu (yekdilliklə).

Maddə 3 və 8 ilə birgə götürülmüş Maddə 13: Nə cinayət şikayəti nə də Dövlətin dəymiş ziyana görə məsuliyyəti ilə bağlı iddia adekvat daxili müdafiə vasitəsi deyildir. Psixoloji iztirab verilməsinin yerli qanunvericiliyə görə cinayət əməli hesab edilməməsi faktı səbəbilə, ərizəçilərin mümkün cinayət şikayəti uğursuzluğa məhkum idi. Ərizəçilər qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qalmamaq və ya evinə hörmət hüququnu təmin etmək üçün heç bir daxili müdafiə vasitəsinə malik olmamışlar.

*Nəticə*: pozuntu (yekdilliklə).

Maddə 41: mənəvi ziyana görə, bütün ərizəçilərə birgə 40,000.